# LAYİHƏ ÜZRƏ MƏLUMAT BÜLLETENİ

Funded by the European Union

**Bağlantı üzrə Şərq Tərəfdaşlığı İnvestisiyaları Proqramı (EPIC)**



**İcra müddəti:** 27.12.2021 - 26.12.2028

**ŞT ölkələri:**

Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova, Ukrayna

**Aİ-nin maliyyə yardımı:** € 12 300 000

**Ümumi büdcə:** € 12 300 000

**İcraçı təşkilat(lar):**

European Investment Bank (EIB), European Bank for Reconstruction and Development (EBRD), World Bank (WB)

**Sosial media hesablarına keçidlər:**

facebook.com/EIBinSouthCaucasus/, linkedin.com/company/jaspers-partnership/posts/?feedView=all

**Internet səhifəsi:** eib.org/en/products/advisory-services/epic/index

**Layihənin təsviri:**

Şərq Tərəfdaşlığında Nəqliyyat Əlaqələrinin Gücləndirilməsi üzrə İnvestisiyaları Proqramı (EPIC) Şərq Qonşuluğu regionunda nəqliyyat şəbəkələrinin təkmilləşdirilməsinə və bu region daxilində, eləcə də Şərq Tərəfdaşlığı (ŞT) ölkələri ilə Avropa İttifaqı (Aİ) arasında nəqliyyat əlaqələrinin gücləndirilməsinə töhfə vermək məqsədi daşıyır. Bu təşəbbüs nəqliyyat əlaqələrinin təkmilləşdirilməsi sahəsində Azərbaycan, Ermənistan, Gürcüstan, Moldova və Ukraynaya pulsuz məsləhət dəstəyi və texniki yardım təmin edir. Layihə çərçivəsində Aİ standartlarına uyğun, o cümlədən iqlim dəyişikliklərinə dayanıqlı və ətraf mühitə zərər verməyən investisiya layihələrinin həyata keçirilməsində Şərq Tərəfdaşlığı ölkələrinə kömək ediləcək.

EPIC proqramı Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və Avropa İnvestisiya Bankı (AİB) tərəfindən idarə olunan bu proqram Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və Dünya Bankı (DB) ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir.

**Gözlənilən nəticələr:**

Aşağıdakı nəticələrin əldə edilməsi məqsədilə konkret və real nəqliyyat investisiyalarının formalaşdırılmasını təmin etmək:
- Gediş müddətinin və xərclərin azaldılması
- Problemlərin aradan qaldırılması
- Yol təhlükəsizliyinin artırılması
- Nəqliyyat infrastrukturunun iqlim dəyişikliyinə uyğunlaşdırılması
- Aİ-nin Şərq Qonşuluğu ölkələrinin vətəndaşları üçün sosial-iqtisadi və ətraf mühitin qorunması baxımından faydaların təmin edilməsi.